## Dissertasiya işinin ümumi xarakteristikası

**Tədqiqatın aktuallığı.** Müasir dövrdə dövlət büdcəsi vasitəsilə ölkənin sosial-iqtisadi sahələrinin maliyyələşdirilməsi təmin edilir, iqtisadi rayonların və ayrı-ayrı reqionların inkişafı tənzimlənir. Dövlət iqtisadi münasibətlərin bu cür tənzimlənməsi vasitəsilə ölkədə məhsuldar qüvvələrin inkişafını təmin edir. Belə ki, büdcə vasitəsilə ilə ümumi daxili məhsulun yenidən bölgüsü eyni vaxtda həyata keçirilən iki prosesi, yəni, büdcənin gəlirlərinin yaradılması və büdcə vəsaitlərinin istifadəsini əhatə edir.

Məlumdur ki, dövlət büdcəsinin formalaşması və idarə edilməsi uzun tarixi inkişaf dövrü keçmişdir. Lakin bazar münasibətləri şəraitində dövlət büdcəsinin, gəlir və xərclərinin idarə edilməsi vəzifələri daha da çətinləşmiş və nəticədə ciddi sosial-iqtisadi problemlərlə üzləşmişdir. Ona görə də, xüsusən, gəlirlərin və xərclərin idarə edilməsi strategiyası ən mühüm iqtisadi-istehsal problemləri prizması baxımından işlənib hazırlanmalı və qiymətləndirilməlidir. Məhz belə yanaşma, ümumiyyətlə dövlət büdcəsinin mürəkkəb təbiəti, məzmunu haqqında daha aydın təsəvvür yaratmağa imkan verə bilər.

Hazlrki dövrdə büdcə sisteminin islahatının əsas elementlərindən biri dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı kompleks tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsidir. Məhz bu baxımdan iqtisadi inkişafın hazırkı səviyyəsinə uyğun büdcə sisteminin formalaşdırılması, dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsi, potensial vergi mənbələrindən istifadə olunması ilə bağlı bir sıra problemlərin mövcudluğu tədqiqat mövzusunun seçilməsinə əsas vermişdir. Sadalanan problemlərin tədqiq edilib öyrənilməsi ölkədə müasir büdcə siyasətinin formalaşmasında və buna uyğun olaraq dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsində yeni, daha mütərəqqi metodların işlənib hazırlanmasına və tətbiqinə şərait yaradar.

**Problemin öyrənilmə səviyyəsi.** Respublikamızda maliyyə sistemində olan problemlərin araşdırılması, milli iqtisadiyyatın inkişaf səviyyəsini nəzərə alaraq iqtisadi proseslərdə büdcə gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edən vergilər vasitəsilə tənzimlənməsi məsələlərinin nəzəri və təcrübi aspektləri respublikamızın iqtisadçı alimlərindən Z.İ.Səmədzadənin, Ş.H.Hacıyevin, D.A.Bagırovun, Ə.İ.Bayramovun, A.Ş.Şəkərəliyevin, R.T.Həsənovun, M.M.Sadıqovun, Ə.Q.Əlirzayevin, M.X.Həsənlinin, Z.F.Məmmədovun, E.M.Sadıqovun, A.M.Kərimovun, S.M.Məmmədovun, Q.N.Manafovun, Ş.S.Qafarovun, T.Ə.Quliyevin, V.T.Novruzovun, B.A.Xankişiyevin, Ş.Ş.Bədəlovun, A.F.Musayevin, R.M.Rzayevin, A.N.Muradovun, P.T.Əhmədoğlunun, A.İ.Əliyevin və başqalarının əsərlərində tədqiq olunmuşdur.



Qərb və rus iqtisadçılarından D.Rikardonun, C.Milin, A.Marşalın, C.Keynsin, L.İ.Abalkinin, P.L.Lavrovun, E.Dolanın, C.Slomanın, B.İrişevin, L.Erxardın, A.Selişevin, V.Qalanovun, V.Kovalyovun və digərlərinin əsərləri büdcə sisteminin nəzəri aspektlərinə, ayrı-ayrı iqtisadi sistemlərdə və ölkələrdə büdcə sisteminin formalaşması təcrübəsinin tədqiqinə və bu təcrübədən səmərəli istifadə problemlərinə həsr edilmişdir.

Bununla belə, büdcə sistemində aparılan ardıcıl islahatlar, yeni büdcə-vergi münasibətlərinin formalaşması, büdcə gəlirlərinin həm kəmiyyətcə, həm də quruluşca dəyişilməsi bu məsələyə yeni elmi yanaşma tərzi tələb edir və yenidən tədqiq edilməsi zəruriliyini yaradır.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi büdcə gəlirlərinin formalaşması xüsusiyyətlərini və qanunauyğunluqlarını aşkara çıxarmaq, büdcə gəlirlərinin idarə olunması sahəsində mövcud vəziyyəti tədqiq etmək, ölkədə dövlət büdcəsinin gəlirləri sistemi üzərində maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən işlənib hazırlanmış təkliflər və tövsiyələr verməkdən ibarətdir.

Tədqiqat zamanı qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyənləşdirilmişdir:

- müasir büdcə sisteminin fəaliyyət xüsusiyyətlərini aşkar etməklə onun iqtisadiyyatın dövlət tənzimləməsindəki rolunu müəyyən etmək;
- dövlət büdcəsi gəlirlərinin formalaşmasının nəzəri-metodoloji əsaslarını araşdırmaq;
- beynəlxalq təcrübədə büdcə gəlirlərinin formalaşması və idarə olunmasının mövcud mexanizmlərini açıqlamaq;
- büdcə sisteminin formalaşması və idarə olunması xüsusiyyətlərini tədqiq etmək;
- müasir şəraitdə dövlət büdcəsi gəlirlərinin inkişaf dinamikasını təhlil etmək;
- büdcə gəlirlərinin formalaşmasına vergi amilinin və potensial vergi mənbələrindən istifadənin təsirini müəyyənləşdirmək;

- dövlət büdcəsi gəlirlərinin formalaşmasında və səmərəli idarə olunmasında mükəmməl qanunvericilik bazasının rolunun artırılması istiqamətlərini müəyyənləşdirmək;

- dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunması sahəsində maliyyə nəzarətinin səmərəliliyinin artırılması yollarını açıqlamaq.

**Tədqiqat işinin nəzəri və metodoloji əsasları**. Tədqiqatın nəzəri-metodoloji əsaslarını Azərbaycan və xarici ölkə alimlərinin büdcə sistemi və büdcə gəirləri sahəsində elmi-tədqiqat işləri, dünya ölkələrinin təcrübəsi, problemlə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisinin qərarları və Respublika Prezidentinin fərmanları, hökumətin sərəncamları, digər hüquqi normativ sənədlər təşkil edir.

Tədqiqat prosesində iqtisadi-statistik, statistik-qruplaşma, müqayisəli iqtisadi təhlil, müşahidə və balans metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın predmeti və obyekti**. Tədqiqatın **predmetini** müasir şəraitdə dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunması ilə bağlı məsələlərinin açıqlanması və onların həlli yollarının araşdırılması, **obyektini** isə dövlət büdcəsinin gəlirlər sistemi təşkil edir.

**Tədqiqatın informasiya bazası**. Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məcmuələrindən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, İqtisadi İnkişaf Nazirliyinin, Maliyyə Nazirliyinin, Vergilər Nazirliyinin statistik və hesabat materiallarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşagidakılardan ibarətdir:

- müasir büdcə sisteminin fəaliyyət xüsusiyyətləri aşkar edilməklə onun iqtisadiyyatın dövlət tənzimlənməsindəki rolu müəyyənləşdirilmişdir;

-dövlət büdcəsi gəlirlərinin formalaşmasının nəzəri-metodoloji məsələləri yeni iqtisadi münasibətlər baxımından araşdırılmışdır;

-ölkədə həyata keçirilən islahatlarla əlaqədar büdcə gəlirlərinin strukturunda və idarə olunmasında baş verən dəyişikliklər qiymətləndirilmişdir;

-büdcə gəlirlərinin artırılmasında vergi amilinin rolunun artırılması imkanları dəqiqləşdirilmişdir;

-inteqrasiya şəraitində büdcə münasibətlərinin dövlət tənzimlənməsi üsulları təhlil edilmişdir;



-büdcə gəlirləri sahəsində dünya təcrübəsi təhlil edilmiş və əsas inkişaf meylləri aşkarlanmışdır;

-dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunmasında maliyyə nəzarətinin təsirinin gücləndirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti ondadır ki, dissertasiya işinin materiallarından tədris prosesində və büdcə gəlirlərinin formalaşması və idarə edilməsi ilə əlaqədar tədqiqatların aparılmasında istifadə edilə bilər.

**Tədqiqat işinin nəticələrinin təcrübi əhəmiyyəti**. Tədqiqat zamanı büdcə sistemi üzrə konkret faktiki materialların müqayisəli təhlili əsasında əldə olunan nəticələr və ümumiləşdirmələrdən istifadə olunması ölkədə büdcə gəlirlərinin formalaşması və idarə olunmasının daha səmərəli həyata keçirilməsinə şərait yaradar.

**Tədqiqatın nəticələrinin çap edilməsi və aprobasiyası**. Dissertasiyanın mövzusu üzrə yerinə yetirilmiş tədqiqatin əsas elmi nəticələri 4,2 çap vərəqi həcmində nəşr edilmiş 17 elmi əsərdə, məruzə və tezisdə öz əksini tapmışdır

**Tədqiqat işinin tətbiqi.** Tədqiqat işinin əsas nəticələri Azərbaycan Kooperasiya Universitetinə təqdim edilmiş, nəticələrin elmi praktiki baxımdan dəyərli olması və universitetdə maliyyə ixtisası üzrə keçilən dərs proseslərində nəzəri vəsait kimi istifadə üçün qəbul edilməsi barədə müvafiq arayiş alinmişdir. ( N 01/354 12.12.2013)

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 4 sxem, 2 qrafik, 18 cədvəl ilə birlikdə 164 səhifədən ibarətdir. Tədqiqat işinin strukturu aşağıdakı kimidir.

**GİRİŞ**

**I FƏSİL. Dövlət büdcəsi gəlirlərinin formalaşmasi və idarə olunmasinin nəzəri - metodoloji aspektləri.**

1.1.Dövlət büdcəsi maliyyə sisteminin başlıca mərkəzləşdirilmiş həlqəsi kimi

1.2.Dövlət büdcəsi gəlirlərinin formalaşmasının nəzəri əsasları

1.3.Büdcə gəlirlərinin formalaşdırılması və idarə olunmasının beynəlxalq təcrübəsi

**II FƏSİL. Müasir dövrdə azərbaycanda dövlət büdcəsi gəlirlərinin formalaşmasi və idarə olunmasi xüsusiyyətləri.**

2.1.Yeni iqtisadi şəraitdə dövlət büdcəsi sisteminin formalaşması xüsusiyyətləri və inkişaf meylləri
2.2.Dövlət büdcəsi gəlirlərinin strukturunda vergi daxilolmalarının müasir inkişaf dinamikasının qiymətləndirilməsi
2.3.Büdcə gəlirlərinin formalaşmasında potensial vergi mənbələrindən istifadənin əsaslandırılması
**III FƏSİL. Dövlət büdcəsi gəlirlərinin formalaşmasi və idarə olunmasinin təkmilləşdirilməsi yolları.**
3.1. Mükəmməl qanunvericilik təminatının formalaşmasının dövlət büdcəsi gəlirlərinin effektiv idarə olunmasında rolu
3.2. Büdcə gəlirlərinin idarə olunmasinin təkmilləşdirilməsi istiqamətləri
3.3. Dövlət büdcəsi gəlirlərinin formalaşmasına və idarə olunmasına maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri
**NƏTİCƏ**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

## TƏDQİQATIN MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS MƏZMUNU VƏ NƏTİCƏLƏRİ

### 1. Dövlət büdcəsi gəlirlərinin formalaşmasi və idarə olunmasinin nəzəri - metodoloji aspektlərinin tədqiqi.

Dövlət büdcəsi bazar münasibətlərinin ayrılmaz hissəsi kimi çıxış etməklə, dövlətin maliyyə siyasətinin vacib aləti sayılır. Büdcə dövlətin fəaliyyəti ilə sıx əlaqədə olan tarixi – iqtisadi kateqoriya kimi nəzərdən keçirilməlidir. Dövlətin tarixi inkişafı dövri xarakter daşıyır və bu büdcənin müvafiq rol və vəzifələrini müəyyən edir. Bazar münasibətlərinin strukturunun özündə, eləcə də dövlət tərəfindən onların tənzimlənməsi mexanizmində dövlət büdcəsi mühüm rol oynayır.

XX əsrin birinci yarısından başlayaraq mikroiqtisadiyyata doğru meyillər gücləndi ki, bu da «Keyns inqilabı» adlandırıldı. Vergi münasibətlərinin inkişaf xüsusiyyətlərini tədqiq edərkən Keyns məktəbi tərəfindən vergilərin mahiyyəti daha aydın müəyyən edilirdi. Bu baxımdan büdcə gəlirlərinin formalaşdırılması və idarə olunması, büdcə xərclərinin təmin edilməsi problemləri ön sıraya çıxır və maliyyələşmə nəinki qazanılan gəlirlər həddində, həm də cəlb edilmiş vəsaitlər hesabına aparılırdı. Bu isə büdcə kəsirinin yaranmasına səbəb olurdu. İngilis-sakson iqtisadi məktəbinin nümayəndəsi A.S.Piqonun



nəzəriyyəsi ictimai rifah nəzəriyyəsinə əsaslanırdı. Bu nəzəriyyəyə görə büdcə məcmu rifahın artırılması məqsədilə gəlirlərin yenidən bölüşdürülməsi vasitəsi kimi nəzərdən keçirilirdi. Məşhur iqtisadçı P.Samuelsonun irəli sürdüyü ictimai rifah nəzəriyyəsində dövlətə və onun tənzimləmə funksiyasına xüsusi yer ayrılırdı. P.Samuelsona görə, bazarın fəaliyyətində «kənarlaşmalar» baş verir, yəni bazar qanunları işləmir, bazar mexanizmləri isə lazımi nəticəni vermir. Bazarın bu «kənarlaşmaları» dövlətin büdcə maliyyələşdirilməsi mexanizmləri hesabına aradan götürülür. Keyns dövlət büdcəsinə iqtisadiyyatın əsas tənzimləyici vasitəsi kimi yanaşmış, onu istehsal amilləri, investisiya və məşğulluq problemləri ilə əlaqələndirmişdir. Hətta o, bu problemə daha geniş mövqedən yanaşmaqla dövlət maliyyəsinə məşğulluq və gəlirlər nəzəriyyəsinin bir hissəsi kimi baxmışdır.

Büdcə hər bir dövlətin ən vacib institutlarından biri olduğundan istər dövlət, istər yerli özünüidarəetmə orqanları, istərsə də ayrı-ayrı təşkilatlar öz vəzifə və funksiyalarını həyata keçirmək üçün müəyyən maliyyə vəsaitinə malik olmalıdırlar. Həmin idarə və təşkilatlar, həmçinin də dövlət müvafiq vəzifə və funksiyalarını həyata keçirmək məqsədilə maliyyə bazası – pul vəsaiti fondu – büdcə yaradırlar.

İqtisadi ədəbiyyatda qeyd olunanları ümumiləşdirməklə belə qənaətə gəlmək olar ki, dövlət büdcəsi dövlətin, bələdiyyə büdcəsi isə bələdiyyələrin maliyyə planıdır. İqtisadi kateqoriya kimi «dövlət büdcəsi» anlayışına nəzəri, iqtisadi, hüquqi və qanunvericilik baxımından dörd əsas yanaşma mövcuddur.

Nəzəri baxımdan yanaşmaya əsasən, büdcə dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondunun yaradılması, bölgüsü və istifadəsi prosesində yaranan iqtisadi münasbətlər sistemidir.

İqtisadi yanaşmaya görə, büdcə ictimai maliyyənin yaradılması, bölgüsü və istifadəsi üzrə əsas maliyyə planıdır. Hüquqi baxımdan büdcə dövlət hakimiyyətinin səlahiyyətli orqanı tərəfindən xüsusi prosedur şəklində qəbul olunan qanundur.

Həqiqətdə də belədir ki, büdcənin mahiyyəti onun həyata keçirdiyi funksiyalarda öz ifadəsini tapır. Bəzi iqtisadçıların fikrincə, büdcə mərkəzləşdirilmiş ümumdövlət pul vəsaiti fondunun yaradılması, bu fondun istifadə edilməsi və büdcə vəsaitlərinin hərəkətinə nəzarətin həyata keçirilməsi kimi mühüm funksiyaları yerinə yetirməklə cəmiyyətdə baş verən sosial-iqtisadi prosesləri tənzimləyir .

Bəzi iqtisadçılar dövlət büdcəsinin funksiyaları sırasına bölgü və nəzarət funksiyalarını, digər qrup iqtisadçılar isə ÜDM-un yenidən bölüşdürülməsi; iqtisadiyyatın dövlət tənzimlənməsi və həvəsləndirilməsi; dövlətin sosial siyasətinin həyata keçirilməsinin maliyyə təminatı; mərkəzləşhdirilmiş pul vəsaitləri fondunun yaradılması və istifadəsi üzərində nəzarət kimi funksiyaları fərqləndirirlər.

Dövlət büdcəsi həm də iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin ən mühüm vasitələrindən biridir. Belə ki, dövlət büdcəsinin tarazlığı iqtisadiyyatın özünün tarazlığını müəyyən edən başlıca və ən mühüm meyardır. Dövlət büdcə mexanizmi vasitəsilə iqtisadi və sosial prosesləri stimullaşdırmaq imkanına malikdir. Büdcə mexanizmi qurulduqda və tətbiq edildikdə iqtisadi yüksəlişə, sosial sferanın inkişafına, elmi texniki tərəqqinin sürətlənməsinə, istehsal sahələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına daha real və səmərəli təsir edilir. Dövlət büdcə vasitəsilə əldə etdiyi vəsaitlərldən istifadə etməklə iqtisadiyyatı və burada baş verən prosesləri tənzimləyir.

**2. Dövlət büdcəsi gəlirlərinin formalaşmasının əsas prinsiplərinin müəyyənləşdirilməsi.**

Iqtisadi inkişafın təsir gücü dövlətin maliyyə siyasətinin tətbiq olunma mexanizmindən xeyli asılıdır. Bu istiqamətdə əsas mövqeyi maliyyə siyasətinin tərkib hissəsi olan büdcə siyasətinin tənzimləyici tətbiqi tutmaqdadır. Maliyyə siyasətində büdcə gəlirləri iqtisadiyyatın dövlət tənzimlənməsi istiqamətində əsas mənbə kimi çıxış edir. Bu mənbənin düzgün siyasi çərçivədən hədəfləndirilməsi iqtisadiyyatda əks nəticə ilə qeyri-taraz gəlir azlığı potensialı ilə büdcə mexanizminə təsir göstərə bilər. Məhz bu baxımdan da büdcə siyasətinin mexanizmini iqtisadiyyatın inkişafına doğru istiqamətləndirilməsi üçün gəlir və xərclərinin faktiki və strateji planlaşdırılmasına yönəldilməlidir. Dövlət gəlirləri sisteminin əsas tərkib hissəsi olan büdcə gəlirləri dövlətin maliyyə ehtiyatlarını özündə cəmləşdirir. Büdcə gəlirləri iqtisadi əlaqələri ifadə etməklə bütün mülkiyyətdən olan müəssisə, təşkilatlar və əhalinin gəlirləri hesabına ölkənin büdcəsini formalaşdırır. Bu iqtisadi əlaqələr müəssisə, təşkilat və əhalinin dövlət büdcəsi gəlirlərinə müxtəlif növ tədiyyələr ödənilməsində özünü göstərir.

Müxtəlif səviyyəli büdcələrin xərclərinin təmin olunması üçün onlar müvafiq gəlirlərə malik olmalıdır. Bu məqsədlə müasir tələblərə cavab verən büdcə təsnifatı büdcənin gəlir və xərclərinin uçotunun beynəlxalq standartlara uyğun həyata keçirilməsinə imkan verməlidir.



Hal-hazırki dövrdə büdcə sisteminin mahiyyəti bir qədər dəyişmiş və daha geniş münasibətlər sistemi olan bazar münasibətlərinin təsvirini özündə əks etdirir. Bu, iqtisadi sistemin inkişaf etməsi ilə əlaqədar olaraq bir sıra ölkələrdə büdcənin idarə edilməsi sahəsində mühüm dəyişikliklər həyata keçirilməkdədir. Bu dəyişikliklər hər şeydən əvvəl büdcənin gəlirlər bölümünün geniş sisteminin yaradılması ilə əlaqədardır. Çünki hər bir iqtisadi prosesin əvvəli də, sonu da gəlirə söykənir. Bu səbəbdən də dövlət gəlirlərinin mənbələri müxtəlif və çoxsaylıdır. Bu gəlir mənbələrinin bir çoxu tarixi olaraq qədim zamanlardan yaranıb, böyük inkişaf mərhələsi keçsə də struktur dəyişikliyi, iqtisadi inkişafın mərhələləri yeni-yeni gəlir mənbələrinin yaranmasına şərait yaradır, dövlət gəlirlərinin tərkibinin dəyişərək genişlənməsinə təsir göstərir. İnkişaf etmiş ölkələrdə ilk növbədə onlara daha çox gəlir gətirən və gəlirlərini artıracaq sahələrin inkişafına diqqətin artması həmin sahələrə böyük həcmdə sərmayə qoyuluşunu stimullaşdırır. Eyni zamanda, gəlirlər özləri də öz daxilində bir-birindən ayrılırlar. Gəlirlərin tərkibinə aşağıdakı gəlir növləri də daxildir: vergilərdən daxilolmalar, dövlət sərvətlərindən istifadəyə görə borclanmadan gələn gəlirlər və xəzinənin imkanından istifadə etməklə əldə edilən gəlirlər. Bu gəlirlərdən dövlətin sərvətindən istifadəyə görə və vergilər həqiqi dövlət gəlirləri, xəzinə imkanlarından istifadə etməklə əldə edilən gəlirlər isə fövqəladə dövlət gəlirləridir. Çünki, xəzinənin buraxdığı dövlət qiymətli kağızları və alınmış borc gələcəkdə mütləq ödənilməlidir. Ölkəmizdə gəlirlərin büdcə sisteminin həlqələri arasında bölgüsü aşağıdakı prinsiplərə əsaslanır: büdcənin gəlirlər sisteminin müvafiq ərazinin iqtisadi inkişafından asılı olaraq onların gəlirləri hesabına formalaşması, tədiyyələrin ardıcıl və fasiləsiz daxil olması təmin edilməklə, kassa kəsirinin əmələ gəlməsinin qarşısının alınması, hər bir büdcənin xərcləri səviyyəsində maliyyə vəsaiti ilə təmin edilməsi, müvafiq ərazinin iqtisadi inkişafına uyğun olaraq büdcənin təminatı və büdcələrin balanslaşdırılmasına nail olunması.

**3. Müasir iqtisadi şəraitdə Azərbaycanda dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunması xüsusiyyətləri**

Ölkə iqtisadiyyatının müasir inkişaf xüsusiyyətləri sırasında mühüm məqamlardan biri son illərdə dövlətin düşünülmüş şəkildə iqtisadiyyatın idarə edilməsində rolunun əhəmiyyətli dərəcədə gücləndirilməsi hesab edilə bilər. Bu isə özünü, ilk növbədə, dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunması prosesində göstərir. Statis-

tik məlumatların təhlili göstərir ki, Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirlərinin formalaşmasında başlıca rol Dövlət Neft Fonduna, Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə məxsusdur. 2012- ci ildə Dövlət Neft Fondundan büdcəyə tələb olunan məbləğdə, yəni 9905,0 milyon manat vəsait daxil olmuşdur. Təhlil göstərir ki, Vergilər Nazirliyinin xətti ilə yığılan vergilərin həcmi 2012-ci ildə 6025,5 mln. manat təşkil etmişdir ki, bu da 2003-cü illə müqayisədə 7,4 dəfə çoxdur. Təhlil olunan dövrdə Dövlət Gömrük Komitəsi tərəfindən büdcə daxilolmalarının həcmi 5,7 dəfə artmaqla, 2003-cü ildəki 212,2 mln manatdan 2012-ci ildə 1208,3 mln. manata yüksəlmişdir. Onu da qeyd edək ki, 2002-ci ildən sonra büdcə gəlirlərində vergi ödənişlərinin payının kəskin aşağı düşməsi nəticəsində 2003-cü ildən büdcədə Dövlət Neft Fondundan daxilolmaların payı artmışdır. Belə ki, bu göstərici əgər 2003-cü ildə 100 mln. manat təşkil edirdisə, 2012-ci ildə bu göstərici 99,1 dəfə artaraq 9905,0 mln. manata çatmışdır. Bütün bunların nəticəsində büdcə daxilolmalarında onu təmin edən orqanlar üzrə strukturunda xeyli dəyişikliklər baş vermişdir. Belə ki, büdcə gəlirlərinin strukturunda Vergilər Nazirliyinin xüsusi çəkisi 2003-cü ildəki 67,0%-dən 2012-ci ildə 34,9%-ə, Dövlət Gömrük Komitəsinin payı müvafiq olaraq 17,4 %-dən 7,0 %-ə enmiş, bunun müqabilində isə Dövlət Neft Fondunun payı müvafiq surətdə 8,2%-dən 57,3%-ə yüksəlmişdir. Qeyri-dövlət sektoru üzrə daxilolmaların həcmi 2012-ci ildə 2003-cü ilə (346, 4 mln. manat ) nisbətən 12, 5 dəfə artmışdır. Nəticədə qeyri-dövlət sektorunun vergi daxilolmalarında xüsusi çəkisi 2003-cü ilə nisbətən 42,1%-dən 71, 9 %-ə yüksəlmişdir. Bu da ilk növbədə qeyri-dövlət sektorunda iqtisadi aktivliyin artması, azad rəqabətin təmin olunması və iqtisadiyyatın şaxələndirilməsi tədbirlərinin aparılması ilə izah olunur. Neft-qaz sektorunda hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi qeyri-dövlət sektoru üzrə büdcəyə 2 mlrd. 928,8 mln.manat vəsait daxil olmuşdur ki, bu da sektor üzrə daxilolmaların 67,6 %-ni təşkil etməklə 2008-ci il ilə (1929,8 mln. manat) müqayisədə 999 mln.manat və ya 51,8 % çoxdur.

Təhlildən məlum olur ki, son illərdə olduğu kimi, 2013 - cü ildə də ümumi iqtisadi inkişafa uyğun olaraq büdcə gəlirlərinin strukturunda artım baş vermişdir ki, bu da ölkə iqtisadiyyatının idarə edilməsinin düzgün tənzimlənməsinin bariz nümunəsidir. Növbəti 2014 - cü ildə də büdcə gəlirlərinin formalaşdırılmasının strukturunda kompleks dəyişikliklər nəzərdə tutulmuşdur. Bu baxımdan isə ilk



növbədə, ümumi gəlirlər sırasında qeyri-vergi dövlət gəlirlərinin payının artması meylinin bərpa olunması qeyd edilməlidir.

Hesablamalar göstərir ki, son illərdə gəlirlərin yenidən bölgüsü mexanizmi kimi dövlət büdcəsinin milli iqtisadiyyatda rolu da yüksəlmişdir. Büdcə gəlirlərinin ÜDM-ə nisbəti 2003-cü ildəki 17,1%-dən 2009-cu ildə 29,9%-ə, 2010-cu ildə 27,4%-ə, 2012-ci ildə isə 32,0%- ə çatmışdır.

2013-cü il dövlət büdcəsinin gəlirləri 19159,0 mln. manat, xərcləri isə 19850,0 mln manat təşkil edir. 2013-cü ildə büdcənin gəlirləri 2011-ci ilə nisbətən 22,0%, 2012-ci ilə nisbətən 10,9%, büdcənin xərcləri isə müvafiq olaraq 28,9 % və 16,0 % artmışdır. Dövlət büdcəsinin kəsiri 691 mln. manat məbləğində müəyyən edilmişdir ki, bunun da ÜDM-ə nisbəti 1,1% təşkil edir. Onu da qeyd edək ki, son illərdə dövlət büdcəsinin kəsiri Avropa Birliyi ölkələri üçün müəyyən olunmuş 3%-lik normadan yüksək olmamışdır. Eyni zamanda, 2013-cü ildə büdcə kəsirinin əvvəlki illərdən fərqli olaraq inflyasiya yaratmayan mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Bu mənbələrə özəlləşdirmədən, daxili və xarici borclanmadan daxilolmalar və 2012-ci il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı aiddir. 2013-cü il dövlət büdcəsi gəlirlərinin 7149,0 mln. manatı vergilərdən daxilolmalar hesabına, 11350,0 manatı Dövlət Neft Fondunun vəsaitləri hesabına, qalan hissəsi isə digər mənbələrdən təmin olunmuşdur. Ölkə iqtisadiyyatında mühüm maliyyə təminatı rolunu oynayan dövlət və icmal büdcələrdə risklərin qarçısının alınması,aparılan iqtisadi islahatların nəticəsi olaraq ölkə iqtisadiyyatında qeyri neft sektorundan daxilolmaların aptırılması istiqamətində tədbirlərin görülməsi 2014-cü ildə də əsas vəzifələrdəndir. 2014-cü ildə isə dövlət büdcəsi gəlirləri 18384.0 mln man təsdiqləndiyi halda bu məbləgin 9337,0 mln manatı Dövlət Neft Fondundan daxilolmalar hesabına formalaşması planlaşdırılır.Statistik məlumatların təhlili göstərir ki, vergi daxilolmalarının dövlət büdcəsinin gəlirlərində payı azalmışdır. Bununla yanaşı qeyd etmək lazımdır ki, vergi gəlirlərinin gözlənilən nisbi azalması artıq gələn ildə qeyri-neft sektorunun vergi gəlirlərinin artmasına mane olmayacaqdır. Son illərdə neft gəlirlərinin artması və bu gəlirlərin bir hissəsinin ölkənin inkişafına yönəldilməsi büdcə gəlirlərinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur. Neft strategiyasının uğurla reallaşdırılması nəticəsində yaranan neft gəlirləri büdcə gəlirlərinin artırılmasının əsas mənbələrindən biri kimi hələ uzun müddət qalacaqdır.

Son illərdə Azərbaycanda həyata keçirilən büdcə siyasətinin əsas istiqamətlərindən biri əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Bu məqsədlə dövlət büdcəsi hesabına əhalinin təhsil, səhiyyə və mədəni xidmətlərə tələbatların ödənilməsi, pensiya və sosial təminat səviyyəsinin artırılması nəzərdə tutulur.

**4. Real iqtisadi şəraitdə büdcə gəlirlərinin formalaşmasında potensial vergi mənbələrindən istifadə imkanları.**

Azərbaycanda dövlət gəlirlərinin artırılmasının mühüm şərtləri arasında iqtisadi artımın təmin edilməsi ilə yanaşı vergi sisteminin təkmilləşdirilməsi də əhəmiyyətli rola malikdir. Vergi islahatları həm dövlətin, həm də vergi ödəyicilərinin mənafeyinə uyğun surətdə aparılmalıdır. Bu islahatlar həm dövlət büdcəsinin gəlirlərinin artmasına, həm də vergilərin tənzimləyici funksiyasının daha da təkmilləşdirilməsinə xidmət etməlidir.

Vergi yığımının artımı adətən ÜDM-in artımı ilə müqayisə olunur, yəni əgər ÜDM artırsa, analoji templə vergi yığımı da artmalıdır. Düzdür, mal mübadiləsi həcminin artırılması aparılan iqtisadi siyasətin əsasıdır və ölkənin iqtisadi inkişafını təmin etmək üçün mal dövriyyəsi artırılmalıdır. Lakin ÜDM-in artımı bir qayda olaraq vergi yığımını artırmalıdır hökmü heç də həmişə real şəraitdə öz təsdiqini tapmır. Belə ki, vergi təkcə satış həcminin artması ilə formalaşmır, o hər şeydən əvvəl müəssisələrin əldə etdikləri mənfəətin həcmindən və fiziki şəxslərin gəlirlərindən asılıdır. Bazar iqtisadiyyatının formalaşma səviyyəsi onun hərəkətverici qüvvəsi olan rəqabətin və bazarın bölüşdürülməsi səviyyəsi ilə ölçülür. Bəzən bu və ya digər müəssisə bazara sahib olmaq üçün malları çox aşağı qiymətə sataraq müəyyən qədər ziyana da düşür. Bu addım ÜDM-in həcmini artırsa da vergi daxilolmalarını artırmır. Ona görə də ÜDM-nun artımı hökmən vergi daxilolmalarını artırmalıdır qənaətinə gəlmək düz deyil və büdcə sistemini daha etibarlı və müasir qiymətləndirmə ilə təmin etmək lazımdır.

Birinci növbədə vergi daxilolmalarının potensial mənbələri araşdırılmalıdır və bu mənbələrin hər biri qiymətləndirilməlidir. Bu isə birinci növbədə gəlirlərin proqnozlaşdırılması prosesinin elmi cəhətdən əsaslandırılmasını tələb edir. Nəzərə almaq lazımdır ki, əvvəlcədən artıq təsdiqlənmiş gəlir proqnozları sonradan büdcənin idarə edilməsində çətinlik yaratmaqla bərabər ümumən vergi-büdcə səmərəliliyini aşağı salır. Ölkəmizdə maliyyə axınlarının hərəkəti əsasən paytaxtda və qismən də böyük şəhərlərdə mərkəzləşmişdir. Bu tendensiya pul və-



saitlərinin paytaxtda cəmləşməsinə səbəb olan iri vergi ödəyicilərinin korporativ maraqları və regionlarda bank sektorunun kifayət qədər inkişaf etməməsi ilə əlaqədardır. Bu hal isə hər bir regionun vergi bazasının hesablanmasında fərdi yanaşmanın vacibliyini müəyyən edir.

Bu səbəbdən də Azərbaycan Respublikasının regionlarının vergi bazasının obyektiv müəyyənləşdirilməsi və bunun əsasında vergi potensialının hesablanması üçün ilkin şərt, yəni regionlarda makroiqtisadi vəziyyətin inkişaf tendensiyasını təyin edən, həmçinin vergi bazasının ümumi vəziyyətinə və onun inkişaf perspektivinə təsir edən bu və ya digər amillərin və maliyyə axınlarının mövcud strukturunun göstəricilər sisteminin formalaşdırılması təmin olunmalıdır.

**Dövlət büdcəsinə vergi və sair daxilolmalar haqqında məlumat**

**Cədvəl 1**.

| Vergi və digər ödənişlər | Daxilolmalar (min AZN) | | | | | |
|---|---|---|---|---|---|---|
| | ***2007*** | ***2008*** | ***2009*** | ***2010*** | ***2011*** | ***2012*** |
| **ƏDV** | 669 648,9 | 1 169 893,6 | 1 180 280,6 | 1 271 462,7 | 1 387 662,7 | 1 483 585,3 |
| **Aksizlər** | 330 585,1 | 395 810,5 | 417 368,2 | 452 027,4 | 417 394, 4 | 454 642,4 |
| **Mənfəət vergisi** | 2459 184,6 | 2 863 950,2 | 1 329 192,5 | 1 429 824,9 | 2 133 993,3 | 2 252 223,2 |
| **Mədən vergisi** | 123 233,1 | 147 749,5 | 121 904,4 | 130 074,4 | 129 770,0 | 125 782,7 |
| **Torpaq vergisi** | 27 288,3 | 30 789,7 | 26 235,6 | 35 311,2 | 35 321,0 | 30 596,1 |
| **Əmlak vergisi** | 72 759,6 | 113 225,5 | 66 168,7 | 101 811,5 | 103 867,1 | 105 087,4 |
| **Fiziki şəxslərin gəlir vergisi** | 596 596,9 | 637 800,2 | 581 873,3 | 590 235,1 | 715 656,2 | 812 958,4 |
| **Dövlət rüsumu** | 50 063,2 | 59 870,7 | 72 874,5 | 89 519,1 | 104 804,8 | 103 186,3 |
| **Yol vergisi** | 17 144,1 | 27 365,6 | 16 462,8 | 15 168,8 | 28 095,4 | 28 655,3 |
| **Sadələşdirilmiş vergi** | 48 106,2 | 65 654,5 | 63 573,7 | 65 525,0 | 100 425,7 | 111 423,2 |
| **Sair daxilolmalar** | 154 649,0 | 234 455,8 | 237 465,7 | 111 839,9 | 318 071,4 | 517 226,2 |
| **Cəmi** | **4 549259,0** | **5 746 565,8** | **4 113 400,0** | **4 292 800,0** | **5 475 062,0** | **6 025 366,5** |

**Mənbə: taxes.gov az**

Cədvəl məlumatlarına əsasən son illər üzrə ən böyük artım ƏDV və sadələşdirilmiş vergi növləri üzrə müşahidə olunur.

Vergitutma bazasına əhəmiyyətli dərəcədə təsir göstərən bir sıra amillər da nəzərə alınmalıdır. Məsələn: iqtisadiyyatda ödəməmələr problemi, əmək haqqı borcunun olması, tətbiq edilən hesablaşma formaları və s. Nisbətən iri vergi ödəyicilərinin (maliyyə-bank və maliyyə-sənaye

holdinqləri daxil olmaqla) regionlarda vergi bazasının dəyişməsinə təsirinin öyrənilməsi də vacibdir. Bu zaman onların maliyyə vəziyyəti, hesablaşma növü, hüquqi statusu və strukturu təhlil olunmalıdır.

Alınmış göstəricilər regionun ümumi gəlirinin, regionun iqtisadi, maliyyə və vergi potensialının hesablanmasının informasiya bazasını təşkil edəcəkdir. Bu informasiya bazası regionun iqtisadi artımının və müvafiq olaraq vergi daxilolmalarının artırılmasının mümkünlüyü haqqında məlumat verəcəkdir. Bu məlumatın büdcənin növbəti dəfə formalaşmasında böyük rolu olacaqdır. Belə ki, burada regionların subsidiya, subvensiya, dotasiya və transfert maliyyələşdirilməsi şəklində olan dövlət resurslarına tələbatı daha aydın əks olunacaqdır,

Adları sadalanan göstəricilər sisteminin istifadəsi makroiqtisadi amillər və vergi bazasının ümumi vəziyyəti arasında funksional asılılığı müəyyənləşdirməyə şərait yaradır ki, bu da öz növbəsində bizə iqtisadiyyatın sahələrində və ölkənin regionlarındakı vergi bazasını obyektiv qiymətləndirməyə imkan verir.

Bir sıra ölkələrdə dövlət subsidiyalarının yerinə özəl biznesin vergi güzəştləri əsasında stimullaşdırmasına üstünlük verilir. Ancaq vergi güzəştləri öz növbəsində müəssisələrə fəaliyyət nəticəsində dövlətin müəyyən hədəflərinin yerinə yetirilməsinə görə verilə bilər.

Vergi dərəcələri arasında diferensasiyasının mövcudluğu iqtisadi fəaliyyət növləri və regional inkişaf baxımından qeyri-bərabərlik yaradır, bir sahə digər sahəyə, bir region digər regiona nisbətən daha sürətlə inkişaf edir. Bu isə iqtisadi baxımdan müsbət rol oynamır. Buna görə də ümumi olaraq vergi növləri üzrə vergi dərəcələrinin vahid dərəcələr əsasında qurulmasına üstünlük verilməlidir.

Beynəlxalq təcrübəyə əsasən, müxtəlif ölkələrdə sadələşdirilmiş vergi sistemi tətbiq olunur. Azərbaycanda kiçik biznesin inkişafı üçün sadələşdirilmiş vergi sisteminin tətbiqi davam etdirilməlidir ki, xüsusilə regionlarda kiçik biznes obyektləri rəqabət qabiliyyətli olsunlar və iş məşğulluğu problemi həll olunsun. Ancaq kiçik biznes üçün nəzərdə tutulmuş sadələşdirilmiş vergi rejimindən istifadə edərək bir sıra iqtisadi fəaliyyət növləri üzrə sadələşdirilmiş vergi ödəyiciləri kimi qeydiyyata durmaqla vergidən yayınma halları vergi orqanlarının xüsusi nəzarətində olmalıdır.

Ölkənin və ya hər hansı bir regionun vergi potensialının formalaşmasına bir neçə iqtisadi göstərici təsir edir ki, bunlara da vergi daxilolmaları, vergi borcları, vergi güzəştləri, gizli iqtisadiyyatın yayındırdığı



vergilər, vergi qanunvericiliyi və digər qanunvericiliklərin yaratdığı ziddiyyətlər və boşluqlar nəticəsində yayındırılan vergi məbləği daxildir.

Vergi potensialının qiymətləndirilməsi iki əsas məsələnin həllini qarşıya qoyur: regionun özünün vergi potensialının qiymətləndirilməsi və regionun vergi yükünün yuxarı həddinin müəyyənləşdirilməsi. Bu qiymətləndirmə isə büdcələrarası iştirakçıların hamısının maraqlarının nəzərə alınması ilə obyektiv şərtləndirilən, regionların və bələdiyyə qurumlarının büdcə təminatı səviyyəsinin bərabərləşdirilməsi məqsədi ilə aparılır.

Bu istiqamətdə vacib məsələlərdən biri rayonların icra strukturlarının vergi aktivliyinin yüksəldilməsində rolu, mövcud vergi qanunvericiliyindən istifadə edib vergi potensialının formalaşması, rayonlarda təsərrüfat fəaliyyətinin stimullaşdırılması üçün uyğun mexanizmlərin istifadə olunması, vergitutma bazasının genişləndirilməsi və rayonların özünütəminata keçid olmalıdır. Vergi potensialının qiymətləndirilməsi həm mütləq qiymətdə, həm də indekslər şəklində həyata keçirilir. Bu indekslər regionun vergi potensialının orta makroiqtisadi göstəriciyə nisbəti kimi müəyyən edilir. İndeks göstəriciləri iqtisadiyyatın real vəziyyətini daha obyektiv əks etdirir. Belə ki, bu, istifadə olunan hesablama üsullarının qeyri-təkmilliyindən daha az asılı olub inflyasiya amilinin təsirini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Vergi potensialının regionlararası müqayisəsində bir qayda olaraq adambaşına düşən uyğun göstəricilərdən istifadə olunur.

Belə ki, vergi potensialının kəmiyyət qiymətləndirilməsi zamanı faktiki yığılmış daxilolmalar göstəricisi istifadə olunur. Azərbaycan üçün vergi potensialının ölçü vahidi kimi baza ilində faktiki yığılmış gəlir göstəricisi istifadə oluna bilər. Bu məqsədlə adambaşına düşən orta gəlir göstəricisini də götürmək olar. Bu göstərici də öz növbəsində vergi potensialının nisbi səviyyəsinin baza göstəricisi ola bilər. Adambaşına düşən orta gəlir göstəricisi bir çox ölkələrdə vergi potensialının nisbi ölçüsü kimi istifadə olunur.

Vergi potensialının qiymətləndirilməsi üçün başqa üsullardan da istifadə oluna bilər. Məsələn, rayonun ümumi məhsulu və ya ölkə üzrə ÜDM göstəricisi, rayonun vergiqoyma resurslarının məcmusunun səviyyəsi, reprezentativ vergi sistemi, reqressiya təhlili üsulu ilə reprezentativ vergi sistemi üsulunun birgə istifadə edilməsi və s. üsulları göstərmək olar.

**5. Büdcə gəlirlərinin formalaşmasında və idarə edilməsində fiskal siyasətin rolunun qiymətləndirilməsi.**

Büdcə-vergi siyasətinin həyata keçirilməsi tədbirləri xərcləri azaltmaqla və əlavə vergi islahatlarının köməyilə gəlirləri artırmaqla büdcə kəsirinin kəskin surətdə azaldılmasından ibarətdir. Tarazlaşdırılmış büdcə konsepsiyasının tərəfdarları büdcənin gəlir və xərclərinin balansına nail olmağı zəruri hesab edirlər. Bu konsepsiyanın mahiyyətinə görə iqtisadi artımın azalması fonunda dövlət vergiləri azaltmalı və dövlət xərclərini artırmalı, iqtisadi artımın yüksəlməsi fonunda isə dövlət vergiləri artırmalı və dövlət xərclərini isə azaltmalıdır. Bu zaman birinci halda büdcə kəsirini, ikinci halda isə büdcə artığını şərtləndirir. Bu konsepsiyanın praktiki reallaşdırılması zamanı isə problem yarana bilər. Belə ki, iqtisadi artımın azalması və yüksəlməsi prosesləri davamlığına görə bir-birindən fərqlənir.

**Büdcə gəlirləri, xərcləri, büdcə kəsiri, mln.man.**

**Cədvəl 2.**

| | 2005 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|
| Gəlirlər | 2055,2 | 10325,9 | 11403,0 | 15700,7 | 17281,5 | 19159,0 |
| Xərclər | 2140,7 | 10503,9 | 11765,9 | 15397,5 | 17416,5 | 19850,0 |
| Büdcə kəsiri | -85.5 | -178.0 | -362.9 | +303.2 | -135.0 | -691,0 |

**Mənbə: AR DSK**

Cədvəl məlumatlarından görünür ki, 2005-ci illə müqayisədə 2012-ci ildə büdcə gəlirləri və xərcləri təqribən 9 dəfəyədək artmışdır.

Göründüyü kimi, hökumət büdcə kəsirinin maliyyələşdirilməsi zamanı kapital bazarına daxil olmalıdır və vəsait əldə etmək üçün xüsusi sektorla rəqabətə girməlidir. Bu zaman pula tələb artır. Mərkəzi Bank isə onun təklifini məhdudlaşdırır. Bu da faiz dərəcələrinin artmasına səbəb olur. Nəticədə isə daxili investisiyanın aşağı düşməsi baş verir. Digər tərəfdən isə daxili bazarda faiz dərəcələrinin qalxması həmin ölkənin qiymətli kağızlarına xarici tələbi artırır ki, bu da xarici kapital axınına səbəb olur və dövlətin xarici borcunun məbləğinin artmasına gətirib çıxarır. Xarici hüquqi və fiziki şəxslər qiymətli kağızları əldə etmək üçün, əvvəlcə həmin ölkənin milli valyutasını əldə etməlidirlər. Bu isə milli valyutanın beynəlxalq qiymətinin və ya onun dəyişmə kursunun qalxmasına səbəb olur.



Nəticədə, ixracatın aşağı düşməsi və idxalın artması baş verir. Bu iki prosesi birləşdirsək, nəticə etibarilə xalis ixracatın aşağı düşməsi məlum olur.

Dövlətin maliyyə siyasətinin məqsədi kimi büdcənin yox, iqtisadiyyatın tarazlaşdırılması çıxış etməlidir.

Respublikada makroiqtisadi sahədə nailiyyətlərin təmin edilməsinin əsas şərtlərindən biri düzgün büdcə-vergi siyasətinin həyata keçirilməsi olmuşdur. Büdcə-vergi siyasətinin və maliyyə sistemində aparılan islahatların mühüm istiqamətləri kimi büdcə gəlirlərinin strukturunun təkmilləşdirilməsi və şəffaflığının artırılması, dövlətə məxsus maliyyə ehtiyatlarından səmərəli istifadə etmək baxımından xəzinədarlığın işinin daha da təkmilləşdirilməsi, xərclərin icrasının maliyyə planlaşdırılması əsasında həyata keçirilməsi və vergi məkanını genişləndirməklə vergi yükünü azaltmaq olmuşdur.

**6. Vergi islahatlarının büdcə gəlirlərinin artırılmasına təsirinin proqnozlaşdırılması.**

Vergi islahatlarının başlıca istiqamətlərindən biri əlverişli vergi mühitinin yaradılmasından və sahibkarlığın inkişaf etdirilməsini, investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsini, rəqabətin genişləndirilməsini, yeni iş yerlərinin yaradılmasını stimullaşdırmaqdan ibarət olmalıdır.

Fikrimizcə, Azərbaycanda vergi islahatları strategiyası aşağıdakı istiqamətlərdə davam etdirilməlidir:

- vergi güzəştləriin ixtisarı hesabına vergi bazasının genişləndirilməsi. Məlum olduğu kimi vergi siyasətinin həyata keçirilməsinin səmərəli alətlərindən biri də vergi güzəştləridir. Vergi ödəyicilərinə bu və ya digər vergi güzəştlərini verməklə dövlət müxtəlif iqtisadi proseslərə vergi tənzimlənməsinin təsirini fəallaşdırır. Hazırda respublikamızda fəaliyyət göstərən vergi növləri üzrə vergi güzəştləri və azadolmalar tətbiq olunur. Lakin əksər hallarda vergi güzəştləri öz təyinatı üzrə istifadə olunmur. Buna görə də vergi sisteminin ədalətlilik prinsipini pozan və sistemsiz fəaliyyət göstərən bir sıra vergi güzəştlərinin ləğvi məqsədəuyğun olardı;
- vergi dərəcələrinin azaldılmasının mərhələlərlə davam etdirilməsi və vergi sisteminin iqtisali fəallığın artırılmasında rolunun gücləndirilməsi. Qeyri-neft sektorunun inkişafını sürətləndirmək məqsədilə bu sektor üçün daha aşağı vergi dərəcəsinin müəyyənləşdirilməsi məsələsinə baxıla bilər. Eyni zamanda banklar tərəfindən investisiya yönümlü

kreditlərin verilməsini stimullaşdırmaq məqsədilə banklar tərəfindən investisiya yönümlü kreditlər hesabına əldə olunmuş gəlirlərin daha aşağı dərəcələrlə vergilərə cəlb olunması imkanları araşdırıla bilər;

- vergidənyayınma hallarına qarşı mübarizənin daha da gücləndirilməsi. Xüsusən də iqtisadiyyatın qeyri-neft sektorunda vergilərin yığımlılığının yüksəldilməsi dövlət büdcəsinin neft sektorundan və beləliklə də beynəlxalq əmtəə bazarlarındakı konyukturadan asılılığını azalda bilər;

- vergi yükünün tədricən hüquqi şəxslərin üzərindən götürülərək fiziki şəxslərin üzərinə köçürülməsi. Fiziki şəxslər üzərinə vergi ağırlığı əsasən gəlir vergisi vasitəsilə ötürülməlidir. Azərbaycanda qüvvədə olan fiziki şəxslərin gəlir vergisi haqqında qanunun özündə də bir sıra çatışmamazlıqlar vardır. Belə ki, fiziki şəxslərin gəlirləri vergiyə cəlb edilərkən vergiqoymanın ədalət prinsipinə riayət olunmalıdır. Vergiqoymanın ədalət prinsipinə görə hər bir şəxs gəlirin öz minimum fizioloji və sosial-mədəni tələbatlarını ödədikdən sonra qalan hissəsindən vergi ödəməlidir. Buna görə də şəxsi gəlir vergisində vergiyə cəlb edilməyən minimum minimal istehlak büdcəsi ilə əlaqələndirilməlidir.

- vergi güzəştlərinin sistemləşdirilməsi də vergi siyasətinin prinsipial məqamlarındandır. Prioritet sahələrdə işgüzar fəallığı stimullaşdırmaq üçün vahid güzəşt sisteminin tətbiq edilməsi daha məqsədəuyğun olardı.

- İqtisadi subyektlərin vergi mədəniyyətinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi. Dünya təcrübəsi göstərir ki, vergilərin yığımlılıq dərəcəsinin yüksəldilməsinin mühüm şərtlərindən biri vergi sisteminə dair cəmiyyətdə geniş konsesusun olmasıdır. Yəni cəmiyyət dövlətin mənafeyi naminə vergiləri bu və ya digər dərəcə ilə ödəməyə hazır olmalıdır;

- vergi qanunlarına edilən düzəlişlərdə və digər normativ hüquqi sənədlərin hazırlanmasında vergi ödəyicilərinin rəyinin öyrənilməsinin təmin olunması. Bu vergi qanunvericiliyində dövlətlə vergi ödəyicilərinin mənafelərinin effektiv surətdə uzlaşmasına şərait yaratmış olardı;

- yerlərdə vergi orqanlarının maddi-texniki bazasının daha da yüksəldilməsi. Vergi orqanlarında maddi-texniki bazanın daha da yaxşılaşdırılması, burada mütərəqqi informasiya texnologiyalarının tətbiqi fiskal səmərəliliyi daha da artırır.


Bu baxımdan vergilərin yığılması zamanı tətbiq olunan müxtəlif uçot və hesabat formalarının sayının minimuma endirilməsi imkanlarının nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Eyni zamanda fiskal səmərəlilik baxımından dövlətin və vergi ödəyicilərinin vergilərin yığılması ilə bağlı xərclərinin minimuma endirilməsi də diqqət mərkəzində saxlanılmalıdır.

Vergi islahatlarının uğurla reallaşdırılmasının mühüm şərtlərindən biri də vergi sistemində baş verən dəyişikliklərin iqtisadi siyasətin digər sferalardakı dəyişikliklərlə effektiv uzlaşdırılmasıdır. Eyni zamanda, indiyədək olduğu kimi bundan sonra da respublikada vergi sisteminin siyasiləşməsinə yol verilməməsi diqqət mərkəzində saxlanılmalıdır.

**7. Büdcə gəlirlərinin fomalaşması və idarə edilməsi üzərində maliyyə nəzarətinin təkmilləşdirilməsi.**

Beynəlxalq maliyyə-kredit təşkilatlarının, dünyanın aparıcı şirkətlərinin respublikamıza gəlişi iqtisadi cəhətdən perspektivli sahələrə investisiya qoyuluşunun artması ilə bərabər, büdcə sistemində nəzarətin də məzmunca dəyişdirilməsi, dövrün tələblərinə uyğunlaşdırılması zəruriyyətini doğurmuşdur.

Məlumdur ki, büdcə vəsaitlərinin formalaşması və istifadəsinin səmərəliliyinə kənar nəzarət iqtisadi inkişafın mühüm amilidir. Bununla belə, son dövrlərədək ölkəmizdə bu funksiyaları həyata kecirən qurumların fəaliyyəti bilavasitə icra hakimiyyəti orqanlarına tabe olmaqla bir növ daxili nəzarət xarakteri daşımışdır.

Bu mənada Azərbacanda maliyyə nəzarəti sahəsində Hesablama Palatasının yaradılması dövrün tələblərindən irəli gələn zərurətdən yaranmışdır. Onun fəaliyyətinin əvvəllər mövcud olan maliyyə nəzarəti sistemindən əsas fərqi-icra hakimiyyətlərindən asılı olmayan, müstəqil, sərbəst, kənar nəzarətin-dövlət auditinin aparılması və onun nəticələrinin aşkarlanmasıdır.

Maliyyə nəzarəninin obyekti dövlət büdcə sisteminin maliyyə resurslarının formalaşması, dövlətin funksiyalarının və vəzifələrinin yerinə yetirilməsini təmin etmək məqsədilə onların bölüşdürülməsi və istifadəsi zamanı əmələ gələn iqtisadi münasibətlər, habelə həmin münasibətlərin iştirakçılarıdır. Maliyyə-büdcə nəzarəti əsasən bilavasitə büdcə prosesi çərçivəsində müxtəlif cür nəzarət tədbirlərindən - büdcə təsnifatının gəlir və xərc maddələrinin əsaslılığının qiymətləndirilməsi, bütün səviyyələrdən olan büdcələrin icrasının vaxtamüvafiqliyinin və tamlığının yoxlanılması, büdcədənkənar dövlət fondlarının xərclənməsinə nəzarət və sairədən ibarət olur.

Təsərrüfat həyatının mürəkkəbləşməsi, təsərrüfat subyektlərinin fəaliyyət dairələrinin genişlənməsi, bu subyektlərin dəyişmə meylləri, informasiya axınlarının güclənməsi - bütün bunlar adekvat maliyyə nəzarəti sisteminin təşkil edilməsini və birinci növbədə, etibarlı hüquqi bazanı yaratmaqla həmin sistemin mövcud strukturunda islahatlar aparılmasını və fəaliyyət metodlarının təkmilləşdirilməsini tələb edir. Maliyyə nəzarətinin inkişafı və perspektivdə ölkəmizin inkişaf etmiş dövlətlər birliyinə daxil olması ehtimalı da bunu tələb edir. Buna görə də, ümumiyyətlə, maliyyə nəzarəti sistemində istər nəzəri, istərsə də praktik baxımdan geriliyin aradan qaldırılması bu gün dövlət quruculuğunda ən əsas və ən aktual məsələlərdən biridir. Xüsusən indiki şəraitdə büdcənin mədaxil hissəsinin icrasına və məxaric hissəsinin optimallaşdırılmasına nəzarətin gücləndirilməsi tədbirləri və təkmilləşdirilməsi məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Iqtisadi islahatların strateji əsası büdcə gəlirləri və xərclərinin daha səmərəli idarə olunmasını mümkün edən dövlət nəzarət sisteminin yaradılmasından, gəlirlərin formalaşması və xərclərin təyinatı üzrə istifadəsi üzərində mövcud qanunvericiliyə uyğun olaraq maliyyə nəzarəti və audit təşkilatları vasitəsilə yoxlanılmasından, təhlil edilməsindən, iqtisadiyyatın inkişafının mümkün yollarının araşdırılmasından və bu sahədə daim mütərəqqi təkliflərin hazırlanmasından ibarətdir.

Hesab edirik ki, büdcə vəsaitlərinin xərclənməsinə nəzarətin artırılması üçün «Maliyyə nəzarəti haqqında» qanun layihəsi işlənib hazırlanmalıdır. Artıq ölkə prezidenti «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında» fərman imzalamış və həmin sənədlə maliyyə intizamının qorunması məsələləri nazirlik qarşısında əsas vəzifə kimi qoyulmuşdur. Bundan başqa, Hesablama Palatasının da fəaliyyətinin genişləndirilməsinə zərurət yaranmışdır. Büdcə nəzarətinin təkmilləşdirilməsində qayda, prosedur, qanunvericilik bazası və peşəkar bilik və bacarıqların təkmilləşdirilməsi də önəmli rola malikdir. Xəzinədarlığın idarəetmə sisteminin avtomatlaşdırılması prosesinin başlanması, qəbul edilmə ərəfəsində olan «Maliyyə nəzarəti haqqında» qanun, işlənib hazırlanmaqda olan Büdcə Məcəlləsi, «Vahid büdcə təsnifatı» sənədi prosedur və prosessual bazanın aydınlaşmasına müsbət təsir edəcəkdir. Eyni zamanda, beynəlxalq mühasibat və hesabatlılıq norma və standartlarının tətbiqi də sürətlənməkdədir. Dövlətin maliyyə nəzarəti konsepsiyası özündə bütün maliyyə axınlarının potensialı haqqında lazımi məlumatların toplanmasını, faktiki həcm və strukturlar haqqında, həmçinin onların qarşılıqlı adekvatlığının qiymətləndirilməsi birləşdirməlidir.



**Tədqiqat nəticəsində nəzəri və praktiki əhəmiyyət kəsb edən aşagıdakı nəticələr əldə edilmiş və təkliflər irəli sürülmüşdür.**

Hal-hazırda dövlət büdcəsinin gəlirləri üzrə şəffaflığın artırılmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Büdcə qanunvericiliyinə müvafiq olaraq büdcə-vergi sisteminə daxil olan bütün büdcə növləri sabit və ardıcıl daxil olan gəlir mənbəyinə malik olmalıdır. Ona görə də dövlət büdcəsinə daxil olan gəlirlər qanunvericilik əsasında büdcə həlqələri arasında bölüşdürülür. Bu məqsədlə büdcə həlqələri zəruri gəlir mənbəyi ilə təmin edilməklə hər bir regionun sosial-iqtisadi inkişafı üçün lazımi miqdarda maliyyə vəsaiti müəyyənləşdirilir.

Iqtisadiyyatın dinamik inkişafı və büdcə-vergi sisteminə olan tələblərin daim dəyişməsi müasir dövrümüzün əsas səciyyəvi cəhətlərindəndir. Bu təbii prosesə hazır olmaq üçün təkcə büdcə-vergi inzibatçılığının deyil, mövcud büdcə-vergi qanunvericiliyinin də adekvat olaraq daim təkmilləşməsi tələb olunur.

Büdcə gəıirlərinin formalaşması və idarə olunmasının təkmilləsdirilməsi siyasətində mühüm istiqamətlərdən biri büdcə-vergi qanunvericiliyinin daim yeni iqtisadi proseslərlə uzlaşdırılmasıdır. Öz növbəsində vergi qanunvericiliyinin təkmilləşdirilməsinin konseptual əsasları vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi güzəştlərinin minimuma endirilməsi, vergidən yayınma hallarına qarşı səmərəli mübarizənin təşkili, əlverişli investisiya mühitinin yaradılmasından ibarət olmalıdır. Büdcə qanunvericiliyinin təkmilləşdirilməsinin digər mühüm istiqaməti xəzinə nəzarətinin səmərəliliyinin artırılması olmalıdır.

Bütün vergi ödəyiciləri üçün bərabər iqtisadi şəraitin yaradılması, ölkədə sahibkarlığın inkişafı və azad rəqabətin formalaşması vergi qanunvericiliyinin təkmilləşdirilməsinin əsas prinsiplərinə çevrilməlidir. Büdcə gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edən vergilər sahəsində görülən tədbirlərin aşağıdakıları da əhatə etməsi məqsədəmüvafiqdir:

-vergi hüquqpozmalarına görə məsuliyyət tədbirlərinin sərtləşdirilməsini əhatə etməlidir;

-vergi orqanları tərəfindən vergi ödəyicilərinin hüquqlarının müdafiəsi təmin edilməli və əsassız yoxlamalar aradan qaldırılmalıdır.

-vergi nəzarətinin təkmilləşdirilməsi sahəsində aparılan dəyişikliklər vergi nəzarətinin bütün formalarının sivil metodlarla həyata keçirilməsini təmin etməyə xidmət etməlidir.

- vergi ödəmələri sisteminin inkişafı davam etdirilməlidir;

- vergi ödəyicilərinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsinə şəraitin yaradılması, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilməlidir.

- vergilərin məcburi yığılmasından könüllü ödənilməsinə keçid prinsipini rəhbər tutaraq vergi ödəyicilərinin məlumatlandırılması, onlara keyfiyyətli xidmətin göstərilməsi, habelə vergilərin təbliğatı ilə bağlı işlər vergi ödəyicilərinə xidmət strukturlarının fəaliyyətinin mühüm hissəsini təşkil etməlidir.

- büdcə gəlirlərinin formalaşmasında tam şəffaflıq təmin edilməlidir.

Ümumilikdə büdcə gəlirlərinin artırılmasını təmin etmək və idarə edilməsini təkmilləşdirmək məqsədilə çevik büdcə-vergi siyasəti yeridilməli və büdcənin şəffaflığı daha da artırılmalı, vergi təbliğatı və maarifləndirmə işləri gücləndirilməli, vergi ödəyiciləri arasında münasibətlərin təkmilləşdirilməsi təmin edilməli və büdcə vəsaitlərinin daxil olması və istifadə edilməsi üzərində nəzarətin təşkili və dövlət vəsaitlərinin idarə edilməsi səmərəliliyi artırılmalıdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır.**

1.T.T. Əliyeva. Verginin ölkənin iqtisadi siyasətində rolu. ADİU, İqtisad elmləri : nəzəriyyə və praktika jurnalı. Bakı: 2003, 0,4 ç.v

2.T.T.Əliyeva Bazar iqtisadiyyatı şəraitində büdcə siyasətinin formalaşması prinsipləri. ADİU İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı: 2005, 0,4ç,v

3.T.T. Əliyeva. İqtisadi münasibətlərin formalaşmasında vergilərin rolu. ADİU İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı: 2006, 0,5ç,v

4.T.T. Əliyeva. İqtisadiyyatın bazar münasibətlərinə keçilməsi şəraitində vergiqoyma mexanizminin tətbiqi. ADİU İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı : 2008, N 1,2 0,4ç.v

5. T.T.Əliyeva. DMN sisteminin müasir vəziyyəti. ADİU İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. Bakı: 2008, N2,3 0,4ç,v



6. T.T. Əliyeva. DMN sisteminin formalaşması və idarəetmədə onun əhəmiyyəti. AMEA-nın xəbərləri: İqtisad elmləri seriyası, 2009, N2, 0,4ç,v

7. Алиева.Т.Т. О необходимости реформировании Государственного финансового контроля. Современные аспекты экономики N6 (143) 2009 Санкт-Петербург 0,3ç.v.

8. T.T. Əliyeva. Yeni təsərrüfatçılıq şəraitində vergiqoyma mexanizminin tətbiqi. ADİU İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı Bakı: 2008 N1,2. 0,4ç,v

9. T.T. Əliyeva. Ölkənin iqtisadi siyasətində verginin rolu. Qafqaz Universiteti Konfrans materialı 2010 may H Əliyevin 87 illiyinə həsr olunmuş konfrans materialları 0.3ç.v

10. T.T. Əliyeva. Dövlət büdcəsi gəlirlərinin strukturunda mütərəqqi vergi mənbələrindən istifadənin qiymətləndirilməsi. Qafqaz Universiteti, Konfrans materialı 2011 may H Əliyevin 87 illiyinə həsr olunmuş konfrans materialları 0.3ç.v

11. T.T. Əliyeva. Qlobal maliyyə böhranı şəraitində Azərbaycanda dövlət büdcəsi sisteminin formalaşması xüsusiyyətləri və inkişaf meylləri. "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli" Beynəlxalq Elmi-Praktik Konfransın Materiallarıı ( 04 iyun 2010 Bakı- Azərbaycan ) Bakı-2010 0.4ç.v

12. T.T. Əliyeva. Bazar iqtisadiyyatı şəraitində dövlətin maliyyə nəzarətinin təkmilləşdirilməsində auditin rolu. ADİU İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı Bakı, 2012, 0,5 ç.v

13. Алиева.Т.Т. Об устойчивости банковского сектора Азербайджана в условиях глобализации финансового рынка. Журнал Экономика и Предпринимательство N3. Москва 2012 . 0,4ç.v

14. Алиева.Т.Т. Международные аспекты деятельности и иностранные капиталы в Азербайджане. Книга "Финансовый рынок и кредиты Банковской системы России" Москва 2012. 0,6.ç.v

15. T.T. Əliyeva. Bazar iqtisadiyyatı şəraitində dövlətin maliyyə nəzarətində verginin rolu. AMEA-nın xəbərləri iqtisad elmləri seriyası 2011 N3 0,5ç.v

16. T.T. Əliyeva. Azərbaycan Respublikası Mərkəzi Bankının məqsəd və funksiyaları: təhlil və qiymətləndirmə. AMEA-nın xəbərləri iqtisad elmləri seriyası 2012 .N2 səh.16. 0.4ç.v

17. Алиева Т.Т. Задачи финансовой политики Азербайджана на современном этапе развития. Журнал Экономика и Предпринимательство N2 . Москва 2012 .0.4ç.v



**Алиева Тахмина Тахир гызы**

## Совершенствование формирования и управлением доходами государственного бюджета

Цель диссертации состоит в подготовке предложений и рекомендаций, основанных на научной основе по выявлению особенностей и законномерностей формирования бюджетных доходов, исследованию сложивщегося состояния в области управления бюджетными доходами в процессе осуществляемых для обеспечения эффективной деятельности финансовой системы.

Результаты исследования могут быть использованы в подготовке направления усовершенствования механизма формирования и управлением госбюджетными доходами. Другими словами, применение полученных результатов, как важного фактора экономического прироста и устойчивости финансового сектора экономики, может послужить повышению эффективности бюджетной системы, укреплению бюджетного контроля, развития нефтяного и социального сектора.

В диссертации исследованы особенности государственной бюджетной системы в условиях глобального экомического кризиса, оценены тенденции развития государственной бюджетной системы на ближайщую перспективу, обоснована роль совершеенной бюджетной политики в обеспечении устойчивого макроэкономического равновесия.

Вместе с тем, определены приоритеты государственной бюджетной политики в построении конкурентоспособной и социально-ориентированной национальной экономики. Также изложен концептуальный подход к управлению результативностью бюджетного процесса, определены пути по совершеенствованию институциональной организации финансового контроля, даны соответствующие предложения и рекомендации по совершеенствованию управлением бюджетными доходами.

**Alieva Tahmina Tahir**

## Improvement of formation and management of state budgetary incomes

The purpose of dissertational thesis is to prepare the suggestions and recommendations based on scientific determination the features and regularities of formation of budgetary incomes, a study the created condition in the field of management with the budgetary incomes in the process of providing the effective activity of financial system.

Results of studies can be used for the preparation of instructions for improvement the mechanism of formation and management of state budgetary incomes. In other words, the use of results obtained as the important factor of economic growth and steady financial sector of economics may serve enhancement of budget system efficiency strengthening the budgetary control, progress in nonoil and social sectors.

Improvement of formation of budgetary relations in accordance with the modern level of financial relations allows to determine influence of budgetary mechanism on the steady progress in national economy. A study of above stated problems permits preparation of the new theoretical-methodical regulations as well as practical recommendations in accordance with the budgetary policy formed in the Republics.

In the dissertation thesis the features of the state budgetary system have been studied under conditions of global economic crisis, the progressive tendency of state budgetary system is estimated for nearest prospective, the role of perfect budgetary policy is substantiated as the quarantee of a steady macroeconomic equilibrium.

At the same time the priorities of state budgetary policy in the creating of the national economy with social orientation and competition ability are defined.Also the conceptual approach to the management of productivity of budgetary process is described. Directions for improvement the organization of financial control, the proper suggestions and recommendations for improvement the management of budgetary incomes are presented.



**Kağiz formatı 60x84 1/16.**
**Həcmi 1,5 ç.v. Sayı 100.**

----------------------------------------

**“İqtisad Universiteti” nəşriyyatı**
**AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi,6**

--------------------------------------------------------------------------

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Bank işi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Damət Abbas oğlu Bağırov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

iqtisad üzrə fəlsəfə doktoru
**Araz İsmayıl oğlu Əliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Dissertasiya işinin müdafiəsi "18" dekabr 2013-cü il tarixində saat 14-00- da Dövlət İqtisad Universitetində iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün D 02.051 disertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan : AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "15" noyabr 2013-cü il tarixdə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru:** **dos. Z.İ.Mustafayeva**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**АЛИЕВА ТАХМИНА ТАХИР КЫЗЫ**

**СОВЕРШЕНСТВОВАНИЕ ФОРМИРОВАНИЯ И УПРАВЛЕНИЕМ ДОХОДАМИ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА**

**Специальность: 5301.01. - «Внутренняя фискальная политика и государственные финансы»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени доктора философии по экономике

**БАКУ – 2013**



**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

***Əlyazma hüququnda***

**TƏHMİNƏ TAHİR QIZI ƏLİYEVA**

**DÖVLƏT BÜDCƏSİ GƏLİRLƏRİNİN FORMALAŞMASI VƏ İDARƏEDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ**

**İxtisas: 5301.01. - «Daxili fiskal siyasət və dövlət maliyyəsi»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Bank işi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Damət Abbas oğlu Bağırov**

**Rəsmi opponentlər :** iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

iqtisad üzrə fəlsəfə doktoru
**Araz İsmayil oğlu Əliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Dissertasiya işinin müdafiəsi "18" dekabr 2013-cü il tarixində saat 14-00- da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün D 02.051 disertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan : AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Disertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxasında tanış olmaq olar.

Avtoreferat "15" noyabr 2013-cü il tarixdə göndərilmişdir.

**Disertasiya şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru:** **dos. Z.İ.Mustafayeva**